# Azərbaycan COP29-a sədrliyi zamanı "Qlobal Şimal" və "Qlobal Cənub"u bir araya gətirməkdə qərarlıdır

**"Azərbaycan COP29-a sədrliyi zamanı Qoşulmama Hərəkatına rəhbərliyi təcrübəsindən istifadə edərək, müxtəlif inkişaf səviyyələrinə malik "Qlobal Şimal" və "Qlobal Cənub"u bir araya gətirməkdə qərarlıdır".**

AZƏRTAC xəbər verir ki, bunu xarici işlər naziri Ceyhun Bayramov aprelin 30-da Ərəb Dövlətləri Liqası - Mərkəzi Asiya-Azərbaycan Respublikası Əməkdaşlıq və İqtisadi Forumunun 3-cü iclasında çıxışı zamanı deyib.

O həmçinin COP29-un öz növbəsində Mərkəzi Asiya və Ərəb ölkələri ilə alternativ enerji, iqlimyönümlü kənd təsərrüfatı və təbii fəlakət risklərinin öyrənilməsi sahələrində əməkdaşlıq üçün platforma rolunu oynayacağını da diqqətə çatdırıb.

---

Azərbaycan.- 2024.- 1 may, № 88.- S.10.